**Məhərrəmov V.** Yaxınları onun qəhrəmanlığı ilə fəxr edirlər // Azərbaycan : - 2024. - 2 avqust. - **№ 162**. - S. 10.

**Erməni qəsbkarları 27 sentyabr 2020-ci ildə təxribat törədib torpaqlarımıza hücum çəkəndə Vətən qeyrəti çəkən oğullarımız yurdumuzun müdafisinə qalxdılar.**

44 günlük Vətən müharibəsində iştirak edən, erməni işğalçılarına qarşı cəsarətlə vuruşan oğullarımızdan biri də İbrahimli Kənan Azad oğlu idi. Yoldaşları arasında səmimiyyəti, ziyalılığı ilə seçilən Kənan İbrahimlinin Qarabağda şücaət göstərəcəyinə bəlkə də doğmalarından başqa heç kim inanmazdı. Amma o, - sakit təbiətli, mülayim xarakterli, nümunəvi davranışı, tərbiyəsi ilə fərqlənən Kənan Vətən müharibəsində igidliyinə görə çoxlarına örnək oldu. Erməni qəsbkarları ilə cəsarətlə döyüşdü, üzərinə düşən döyüş tapşırığını bacarıqla yerinə yetirdi. İndi doğulduğu kəndin təkcə yaşlıları, cavanları yox, uşaqları da Kənanın qəhrəmanlığı ilə öyünüb fəxr edirlər...

İbrahimli Kənan Azad oğlu 1999-cu il mayın 28-də Cəlilabad rayonunun Adnalı kəndində dünyaya göz açıb. 2005-ci ildə məktəbə gedib. Dərslərə böyük maraq göstərib. Mülayim xasiyyəti ilə başqalarından seçilib. Mədəniyyəti ilə yaşıdları arasında sevilən bu sakit oğlan orta məktəbin təhsili ilə kifayətlənməyib. Təhsilini Masallı Dövlət Regional Kollecində davam etdirib. Sabahın bacarıqlı mütəxəssisi olmaq üçün yeni-yeni biliklərə yiyələnib.

Kənan İbrahimli 2017-ci ilin iyulunda hərbi xidmətə çağırılıb. Həmin ayın 15-də Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanıb. Oxuduğu təhsil müəssisələrində seçildiyi kimi, hərbi xidmətdə də fərqlənməyi bacarıb. Xidmətinin ilk günlərindən minaatan qurğusunun sirlərinə dərindən yiyələnməyə başlayıb. Təlimlərdə fəal iştirak edən Kənan kifayət qədər döyüş təcrübəsi toplayıb. Xidmətdə fərqləndiyinə görə dəfələrlə komandanlıq tərəfindən fəxri fərmanlarla mükafatlandırılıb.

Həqiqi hərbi xidmətini 2019-cu ilin yanvarında başa vuran Kənan İbrahimli yenidən tələbəlik həyatına qayıdıb, yarımçıq qalmış təhsilini davam etdirib. Erməni işğalçılarının təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda yenidən ordu sıralarına yazılıb.

Sentyabrın 27-də döyüşlərin ilk günündən ordu sıralarında olan Kənan Hadrut qəsəbəsiinin azadlığı uğrunda gedən ağır döyüşlərdə iştirak edib. Hadrutun azadlığı uğrunda cəsarətlə vuruşub. Həmişə döyüş yoldaşlarına ürək-dirək verib, onları qələbəyə ruhlandırıb. Ön mövqedə 4 nəfərlə düşmənə qarşı vuruşarkən İbrahimli Kənan Azad oğlu şəhidlik zirvəsinə ucalıb. Şəhidimizin peşəkarlığı və ayıq-sayıqlığı nəticəsində düşmən geri oturdulub. Kənan ölümü ilə bir neçə hərbçi yoldaşını xilas edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq fərmanı ilə

döyüşlərdə göstərdiyi igidliyə və cəsarətə görə ölümündən sonra İbrahimli Kənan Azad oğlu "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medallarına layiq görülüb.
Əsgər Kənan İbrahimli kimi cəsur oğullar heç vaxt unudulmayacaq. Azərbaycan xalqı onları həmişə hörmətlə xatırlayacaq. Yaxınları, dost-tanışları bu igidlərin qəhrəmanlığı ilə həmişə fəxr edəcəklər.